**“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599 (Cild I); 2024, № 8, maddə 932; 2025, № 11, maddə 1010; Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 312-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.9-cu maddədə “daşınma müqaviləsi və ya digər qanuni əsaslarla haqq müqabilində” sözləri “daşınma müqaviləsi (haqq müqabilində) və ya digər qanuni əsaslarla bu Qanunun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş” sözləri ilə əvəz edilsin.

2. 14-cü maddə üzrə:

2.1. 14.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.2.4 – 14.2.7-ci maddələr əlavə edilsin:

“14.2.4. sürücünün narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı hallarının müəyyən edilməsi üçün aparılan tibbi müayinənin nəticəsi barədə məlumatı;

14.2.5. avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədləri və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqə və tibb məntəqəsi ilə müqavilələri;

14.2.6. ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirən sürücülərin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədləri;

14.2.7. qeyri-müntəzəm sərnişin daşımalarına münasibətdə həmçinin:

14.2.7.1. avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin fərdi qəza sığortası;

14.2.7.2. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təsdiq edən müvafiq icbari sığortası;

14.2.7.3. bu Qanunun 27.2-ci maddəsində nəzərdə tutulan halların təsdiqedici sənədləri.”;

2.2. 14.3.4-cü maddədən ikinci halda “ya” sözü çıxarılsın;

2.3. aşağıdakı məzmunda 14.3.7-1-ci maddə əlavə edilsin:

“14.3.7-1. müntəzəm beynəlxalq və şəhərlərarası (rayonlararası) sərnişin daşımalarına münasibətdə həmçinin:

14.3.7-1.1. avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin fərdi qəza sığortası;

14.3.7-1.2. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təsdiq edən müvafiq icbari sığortası.”.

3. 15.5-ci maddənin birinci cümləsinə “daşımalarında” sözündən sonra “, habelə qeyri-müntəzəm sərnişin daşımalarında” sözləri əlavə edilsin.

4. 15-1.2-ci maddədən ikinci halda “ya” sözü çıxarılsın.

5. 27.2-ci maddəyə “avtomobilləri ilə” sözlərindən sonra “, habelə qeyri-müntəzəm” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 mart 2026-cı il
№ 375-VIIQD